1_Layout 1 13.04.2023 19:11 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 8 (647)

15 aprel 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# XALQIMIZIN QƏLBİNDƏ ƏBƏDİ YAŞAYAN UNUDULMAZ ŞƏXSİYYƏT

### Heydər Əliyev ölkəmizə fikir plüralizmi, demokratik düşüncə tərzi və ədalət duyğusu gətirdi

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli Sərəncamı ilə bu il ölkəmizdə "Heydər Əliyev İli" elan edilib. Möhtərəm Prezident tərəfindən imzalanmış digər bütün aktlar kimi, həmin sərəncam da xalq tərəfindən rəğbətlə qarşılanıb. Bunun səbəbi isə Azərbaycanın taleyində mühüm rolu, Vətən və xalq qarşısında müstəsna xidmətləri olmuş Ulu Öndərə olan ölməz millət sevgisidir. Məhz buna görə də sözügedən sərəncam əsasında Azərbaycan Respublikası Prezidentinin Administrasiyasında hazırlanmış "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı" Tədbirlər Planı istər icraçı orqan və qurumlar, istərsə də hər bir vətəndaş tərəfindən böyük həvəslə icra olunur.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi - Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyevin "Heydər Əliyev İli" çərçivəsində hazırladığı məqaləsində əksini tapıb. Həmin məqaləni ixtisarla təqdim edirik.



Dahi şəxsiyyət Heydər Əliyev hələ yeniyetmə vaxtlarından qeyri-adi keyfiyyətləri ilə həmyaşıdlarından seçilən fenomenal insan səmimiliyi, vətənpərvərliyi və digər nümunəvi davranışları ilə böyükdən-kiçiyə hər kəsin rəğbətini qazanır ki, bu da onun gələcək uğurlarını şərtləndirirdi. 1944-cü ildə gənclərin çoxunun arzusunda olduğu, lakin əldə edə bilmədiyi nailiyyəti qazanaraq dövlət təhlükəsizliyi orqanlarına qulluğa qəbul olunan Heydər Əliyev ömrünün 25 ilini həmin orqanda şərəflə qulluq keçir. Həyatı boyu əlinə düşən imkanlardan özünün şəxsi maraqları deyil, millətinin və dövlətinin naminə istifadə edən böyük insan fəaliyyətinin ilk günlərindən Azərbaycanı və xalqını xoşbəxt gələcəyə aparmağı qarşısına məqsəd qoyur və bu müqəddəs amal uğrunda qətiyyətlə mübarizə aparır. Ötən əsrin 20-30-cu illərində ermənilərin və qeyri millətlərin anti-Azərbaycan qüvvələrinin kök salmış olduğu və xalqımıza qarşı qanlı repressiyalar hazırlayıb həyata keçirmiş Dövlət Təhlükəsizlik Komitəsinin azərbaycanlılaşdırılması və xalqımızın düşmənlərindən təmizlənməsi kimi son dərəcə çətin və eyni zamanda şərəfli işə ilk dəfə hələ sovet rejiminin ən güclü vaxtlarında məhz Heydər Əliyev başlayır. Bununla da 1950-1960-cı illərdə qeyrətli və milli əhvali-ruhiyyəli gənclər Dövlət Təhlükəsizlik Komitəsinə işə cəlb edilməklə, həm bu orqan milliləşdirildi, həm də xalqımızın namuslu övladlarına qarşı gözlənilən növbəti təqiblərin qarşısı alındı.

Sirr deyil ki, XX əsrin 60-cı illərinin əvvəllərində respublika iqtisadiyyatında öz həllini gözləyən çoxsaylı problem mövcud idi. Ölkəmiz həmin dövrə qədər Sovet İttifaqında ən geridə qalmış respublika kimi tanınırdı. 1969-cu ildə hakimiyyətə gələn millətinin böyük oğlu Heydər Əliyev respublikamızı qısa müddətdə sürətlə inkişaf etdirdi, xalqımızın milli mənlik şüurunun alovlanmasına təkan verən məqsədyönlü tədbirlər həyata keçirdi və nəticədə Azərbaycan Sovet İttifaqında ən inkişaf etmiş və qabaqcıl respublikaya çevrildi. Bir müddət sonra ölkəmiz özünü tam təmin etməklə, ümumittifaq büdcəsinə töhfələr verən iki respublikadan biri oldu. Əlbəttə, Azərbaycan müstəqil deyildi və Sovet İttifaqında müəyyən ideoloji çərçivələr daxilində məhdudlaşırdı, bununla belə, totalitar rejimin sərt tələblərinin qüvvədə olduğu bir dövrdə dahi şəxsiyyət Heydər Əliyev Azərbaycana ilk dəfə olaraq fikir plüralizmi, demokratik düşüncə tərzi, güclü sosial ədalət duyğusu gətirdi. O, keçmiş ittifaq rəhbərliyində çalışdığı illərdə müdrik bir siyasətçi kimi Azərbaycanın bütün sahələrdə daha da qüdrətlənməsi üçün əlindən gələni etdi. Müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə ixtisaslı mütəxəssislərin, peşəkar kadrların hazırlanması istiqamətində müdrik şəxsiyyət Heydər Əliyevin gördüyü nəhəng işlər uzaqgörənliyin parlaq sübutu idi. Ulu Öndər hələ 1969-1982-ci illərdə Azərbaycana ilk dəfə rəhbərlik etdiyi dövrdə gələcəkdə ölkəmizin müstəqil dövlət olması üçün fundamental işlərin hamısını uğurla həyata keçirib.

SSRİ-nin süqutu ilə əlaqədar yaranmış tarixi şəraiti düzgün qiymətləndirməklə, vəziyyətdən bəhrələnən xalqımız ötən əsrin sonlarında ikinci dəfə öz müstəqilliyinə qovuşsa da, AXC-Müsavat iqtidarı təmsilçilərinin ambisiyaları və səriştəsizlikləri çox qısa müddətdə müstəqilliyimizi uçurumun kənarına gətirib çıxartdı. Müstəqilliyimizin ilk illərində siyasi çəkişmələr ölkə həyatını iflic edir, müharibə aparan, işğala məruz qalan dövlətdə vahid komandanlığa tabe olan ordu olmadığından silahlı qüvvələr ayrı-ayrı şəxslərin əlində alətə çevrilir, iqtisadiyyat tənəzzülə uğrayır, respublikada vətəndaş həmrəyliyi pozulur, hətta ölkədə "qardaş qanı" axıdılır və vəziyyət ADR-in acı taleyinin təkrarlanması, ikinci dəfə qazanılan müstəqilliyin yenidən tarixə qovuşması təhlükəsi həddinə çatır. Belə bir çətin şəraitdə dövlətçilik ənənələrinə böyük önəm verən və nicatın onda olmasına əmin olan xalq doğru seçim edərək özünün sınanmış rəhbərini - Ümummilli Lider Heydər Əliyevi israrlı tələblə müstəqil Azərbaycanın rəhbərliyinə dəvət edir. Azərbaycanını və xalqını özündən çox sevən Ulu Öndər bütün təhlükələri gözaltına almaqla, heç birinə məhəl qoymadan xalqın çağırışını qəbul edərək, 1993-cü il 9 iyun tarixində Naxçıvandan Bakıya gəlir və iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilir. Bir müddət sonra Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayan dünyaşöhrətli siyasətçi Heydər Əliyev 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilir. Sağlam düşüncəli hər kəs yaxşı dərk edir ki, ölkəmizin müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən həmin anda Heydər Əliyev hakimiyyətə gəlməsəydi, nəinki bugünkü qüdrətli Azərbaycan olmazdı, ümumiyyətlə, onun mövcudluğu şübhə altına düşə bilərdi. Ulu Öndər Heydər Əliyev növbəti dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmizdə bütün sahələrdə köklü islahatlar həyata keçirildi, dövlətimiz hərtərəfli qüdrətləndi və əhalinin rifahı yüksəldi. Belə ki, müdrik liderin qətiyyəti və mükəmməl siyasi strategiyası sayəsində 1994-cü ilin sentyabr ayında ölkəmizin qüdrətlənməsində mühüm əhəmiyyəti olan, Azərbaycanın Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının istifadə edilməsi barədə "Əsrin müqaviləsi" kimi möhtəşəm bir müqavilənin bağlanılmasına dövlətimiz nail oldu. Təbii ki, Azərbaycan neftinin dünya bazarlarına çıxmasında müstəsna rolu olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlinin qoyulması, Azərbaycanı dünyada böyük qaz potensialına malik olan bir dövlət kimi tanıdan "Şahdəniz" layihəsinin, türk dünyasının bir-birilə, o cümlədən bütün dünya ilə birləşdirilməsinə xidmət edən tarixi "İpək Yolu" layihəsinin reallaşması da bu dahi şəxsiyyətin xidmətləri idi.

Fərəhləndirici və qürurvericidir ki, bu gün ölkəmizin uğurları davamlı hal alıb və respublikamız daha da qüdrətlənib. Dövlətimizin hərtərəfli inkişafı prosesi müxtəlif illərin göstəriciləri ilə də öz təsdiqini tapıb.

Sözsüz ki, bu möhtəşəm uğurlar artıq 20 ilə yaxın müddətdir ki, Ulu Öndər Heydər Əliyev siyasətini yüksək məharətlə davam etdirməklə ölkəyə rəhbərlik edən möhtərəm Prezidentimiz İlham Əliyevin müdrikliyi, mükəmməl siyasi strategiyası, misilsiz xidmətləri və onun etibarlı silahdaşı Birinci vitse-prezident Mehriban xanım Əliyevanın böyük dəstəyi, xalqımızın əzmkarlığı, eləcə də sarsılmaz xalq-iqtidar birliyi sayəsində qazanılıb və əminik ki, davamlılığı təmin ediləcək.

Qeyd olunanlar onu göstərir ki, Ümummilli Lider Heydər Əliyevin dövrün tələblərinə uyğun uğurla davam etdirilən müdrik siyasəti və həyata keçirilən ölməz ideyaları həmişə olduğu kimi, bu gün də dövlətimizə və xalqımıza fayda verməkdədir və gələcəkdə də bu tendensiya davam edəcək. Odur ki, Ulu Öndər bütün azərbaycanlıların qəlbində son nəfəsədək yaşayacaq və hər kəs böyük tarixi şəxsiyyəti daim sonsuz məhəbbət hissləri ilə xatırlayacaq.

# Vətən müharibəsi iştirakçıları polis orqanlarında xidmətə qəbul olunub





Aprelin 11-də Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov respublikanın şəhər, rayon polis orqanlarında sıravi və kiçik rəis heyəti vəzifələrində xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.

Sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 132 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 14 nəfəri Vətən müharibəsinin iştirakçısı olub.

Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov xidmətə qəbulun şəffaflıq və aşkarlıq prinsipləri əsasında keçirildiyini qeyd edib. O, seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 13.04.2023 18:52 Page 1



# Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi Şurasının videokonfrans formatında iclası keçirilib

**Aprelin 13-də Daxili Qoşunların Baş İdarəsində videokonfrans formatında "2023-cü ilin müvafiq dövrü ərzində Daxili Qoşunlarda hərbi intizamın vəziyyəti haqqında" Hərbi Şuranın iclası keçirilib.**

İclası giriş sözü ilə açan Hərbi Şuranın sədri, Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov qeyd edib ki, Daxili Qoşunlarda hərbi intizamın vəziyyəti, tərbiyə işinin təşkili, qanunçuluğun möhkəmləndirilməsi üzrə fəaliyyətin nəticələri və qarşıda duran vəzifələr döyüş hazırlığının artırılmasında əsas aspektlərdən biridir.

Diqqətə çatdırılıb ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi uzaqgörənliyi, idarəçiliyi və gərgin əməyi sayəsində həyata keçirilmiş məqsədyönlü islahatlar sonrakı illərdə ölkəmizin davamlı və dinamik yüksəlişi üçün möhkəm zəmin yaradıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev sınaqlardan çıxmış dövlətçilik strategiyasını böyük səriştə ilə inkişaf etdirməkdədir. Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılmış hərbi zəfərimiz beynəlxalq aləmdə Azərbaycanın nüfuzunu daha da artırıb, Cənubi Qafqaz regionunda yeni geosiyasi reallıq yaradıb.

General-leytenant Şahin Məmmədov iclasın gündəliyini elan etdikdən sonra 2023-cü ilin müvafiq dövrü ərzində Daxili Qoşunlarda hərbi intizamın vəziyyəti barədə Daxili qoşunlar komandanının müavini - şəxsi heyət üzrə idarənin rəisi general-mayor İnqilab Muradov məruzə ilə çıxış edib.

Məruzədə bildirilib ki, ötən müddət ərzində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirən Daxili Qoşunların şəxsi heyəti öz andına sadiq qalaraq respublikada ictimai asayişin və daxili təhlükəsizliyin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə, bütövlükdə qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının icrasında yüksək peşəkarlıq və qətiyyətlilik nümayiş etdirib.

Qeyd edilib ki, şəxsi heyətlə tərbiyə işi qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsinə, xəsarətalma hallarının və nizamnamədənkənar münasibətlərin qarşısının alınmasına, komandir və rəislərin şəxsi nümunəliyinin təmin olunmasına, kollektivlərdə sağlam mənəvi-psixoloji mühitin yaradılmasına, hərbi qulluqçuların ictimai-siyasi hazırlıq üzrə biliklərinin artırılmasına yönəldilib. Bu məqsədlə hərbi hissələrdə keçirilən tərbiyə işi tədbirləri nəzarətə götürülüb, hərbi intizamın vəziyyəti üzrə təhlillər aparılıb, fəaliyyət istiqamətləri üzrə müvafiq tövsiyələr verilib.






Həmçinin, Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində qazandığı tarixi qələbənin əhəmiyyəti, möhtəşəm dövlət quruculuğu prosesi, işğal altında olan torpaqlarımızın azad edilməsi ilə dövlətimizin beynəlxalq arenada nüfuzunun artması şəxsi heyət arasında geniş təbliğ edilib.

Bununla yanaşı, Daxili Qoşunlarda cinayət, hadisə və kobud intizam pozuntularına yol verilməməsi, neqativ halların vaxtında qarşısının alınması məqsədilə müvafiq göstərişlərin hazırlanaraq hərbi hissələrə göndərildiyi və icrasının nəzarətdə saxlanıldığı vurğulanıb.

Məruzəçi əlavə olaraq bildirib ki, respublikada baş verən ictimai-siyasi hadisələr, dövlət səviyyəli tədbirlər daim diqqət mərkəzində saxlanılıb, Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq ideologiyasının və zəngin siyasi irsinin öyrənilməsi təmin edilib, mühüm tədbirlərdə və yekunlarda dövlət başçısının çıxışları, eləcə də bununla bağlı Prezident Administrasiyasından göndərilən tezislərdən ictimai-siyasi hazırlıq məşğələlərində və digər tərbiyə işi tədbirlərində geniş istifadə olunub.

Məruzədə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə təsdiq edilmiş aidiyyəti dövlət proqramlarının tələblərindən irəli gələn vəzifələrin yerinə yetirilməsi ilə bağlı şəxsi heyət arasında maarifləndirmə işinin aparıldığı, gənclərin mənəvi-psixoloji durumunun yüksəldilməsi, sağlam həyat tərzi keçirmələri, narkomanlığın cəmiyyətə və insan sağlamlığına ziyanı barədə təbliğat işinin gücləndirildiyi bildirilib.

Çıxışının sonunda general-mayor İ.Muradov Baş İdarənin idarə, şöbə və xidmət rəisləri, hərbi hissələrin komandanlığının əldə olunan nailiyyətlərin qorunması, eləcə də mövcud nöqsanların qısa müddətdə aradan qaldırılması üçün əzmlə çalışacağına, hərbi intizamın vəziyyətinin yüksəldilməsi, xidməti-döyüş tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsi istiqamətində hər bir hərbi qulluqçunun əlindən gələni əsirgəməyəcəyinə, qarşıya qoyulan tələb və vəzifələrin yerinə yetirilməsinə daha məsuliyyətlə yanaşacağına əminliyini ifadə edib.

Daha sonra mövcud vəziyyət, fəaliyyətdə qazanılmış nailiyyətlər, eləcə də yol verilmiş nöqsan və çatışmazlıqların yaranma səbəbləri, onların aradan qaldırılması istiqamətində görülən işlər barədə bir sıra hərbi hissə komandirlərinin və onların tərbiyə işləri üzrə müavinlərinin hesabat-çıxışları dinlənilib.

İclasa yekun vuran general-leytenant Ş.Məmmədov aidiyyəti vəzifəli şəxslərə tapşırıqlar verərək, Daxili Qoşunların şəxsi heyətinin bundan sonra da xalqa və dövlətə sadiqliyini nümayiş etdirərək ləyaqətlə xidmət edəcəyinə, həmçinin ictimai təhlükəsizliyin, vətəndaşlarımızın əmin-amanlığının etibarlı qorunması üçün daim var qüvvəsi ilə çalışacağına əminliyini ifadə edib və hərbi qulluqçulara fəaliyyətlərində uğurlar arzulayıb.

**Mətbuat xidməti**

# TAPŞIRIQLARI HƏR ZAMAN YERİNƏ YETİRMƏYƏ HAZIR OLAN "GÜRZƏLƏR"



Hərbi hissələrimizdə fəaliyyət göstərən xüsusi təyinatlıların silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində həyata keçirdikləri xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir.

25033 saylı hərbi hissənin komandiri polkovnik Rüstəm Dəmirov xüsusi təyinatlı dəstənin xidməti-döyüş fəaliyyəti barədə danışarkən bildirdi ki, dəstə hər an qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirməyə hazırdır. Hərbi qulluqçulardan kifayət qədər fiziki güc və möhkəm iradə tələb edən təlimlərdə iştirak edən xüsusi təyinatlılar yüksək peşəkarlıq nümayiş etdirirlər.





Polkovnik R.Dəmirov vurğuladı ki, hərbi hissənin xüsusi təyinatlı dəstəsinin fəaliyyəti digər bölmələrdən spesifikliyi ilə fərqlənir. Belə ki, təlimlər əsasən çətin iqlim şəraitində təşkil olunub keçirilir. Ekstremal şəraitlərdə dayanıqlığın, mərdliyin və şücaətin nümayiş etdirilməsi, vaxtında və düzgün qərarların verilməsi xüsusilə diqqətdə saxlanılır.

Qeyd edim ki, "Gürzə" şərti adını daşıyan xüsusi təyinatlı dəstənin şəxsi heyəti 2020-ci il sentyabrın 27-dən başlayaraq torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda gedən 44 günlük Vətən müharibəsində böyük cəsarət və qəhrəmanlıq nümayiş etdirib.

Xüsusi təyinatlı dəstənin komandiri mayor Cavid Tağıyev şəxsi heyətlə təlim-məşqlərin hava şəraitindən asılı olmayaraq, davamlı xarakter daşıdığını dedi. Qeyd etdi ki, şəxsi heyətin döyüş təlimi Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Hərbi qulluqçuların təlim-tərbiyəsi, mənəvi-psixoloji hazırlığına diqqət yetirilir.

Döyüş texnikasından bacarıqla və peşəkarcasına istifadə edə bilmələri üçün müxtəlif ərazi və hava şəraitində məşğələlər keçirilir. Fiziki hazırlıq məşğələlərinin keçirilməsində yarımqrup komandirləri də xüsusi fəallıq nümayiş etdirirlər.

Hərbi qulluqçulara cinayətkar dəstələrin zərərsizləşdirilməsi və tərk-silah edilməsi üzrə xüsusi metod və vasitələr öyrədilir, praktiki fəaliyyətə üstünlük verilir.

Mayor C.Tağıyev diqqətə çatdırdı ki, keçirilən praktiki məşğələlər şəxsi heyətin peşə vərdişlərinin təkmilləşdirilməsində çox əhəmiyyətli rol oynayır. Dəstə komandiri təlimlər zamanı şəxsi heyət tərəfindən təhlükəsizlik qaydalarına ciddi riayət olunduğunu bildirdi. O, həmçinin qəflətən qarşıya çıxan xidməti-döyüş tapşırıqlarının peşəkarcasına və müvəffəqiyyətlə yerinə yetirilməsində bundan sonra da yorulmadan hazırlıqların davam etdiriləcəyini vurğuladı: "Hər bir xüsusi təyinatlı öz hərbi peşəsini, vəzifə borcunu dərindən öyrənməli, təhkim olunmuş silaha, əlbəyaxa döyüş fəndlərinə mükəmməl yiyələnməli, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanı bacarıqla tətbiq etməlidir".

Dəstə komandiri intizamlı və fəal hərbi qulluqçulardan gizir Aydın Rzayev, baş çavuşlar Kənan Kərimov, Famil Məmmədov, Zamiq Ağayev və çavuş Rəvan Kazımovun adlarını çəkdi.

**kapitan Şahin Cəfərzadə**

# UĞURLU FƏALİYYƏTİ İLƏ ÖNDƏ OLAN BÖLMƏ







Hərbi hissələrimizə xidməti ezamiyyətlər zamanı çalışırıq ki, nümunəviliyi, xidməti-döyüş fəaliyyəti ilə fərqlənən bölmələr, hərbi qulluqçular haqqında lazımi məlumatlar toplayıb, məqalələri qəzetimizin səhifələrində oxucularımıza təqdim edək. 17072 saylı hərbi hissəyə ezam olunarkən şəxsi heyətin keçdiyi xidmət və döyüş yoluna nəzər saldıq, keçən ilin 2-ci yarımilinin nəticələrinə və əldə etdikləri nailiyyətlərə görə hərbi hissə komandirinin əmri ilə mükafatlandırılan bölmələrin siyahısına diqqət yetirdik. Qeyd edək ki, bu siyahıda ilk üçlükdə qərarlaşanlardan biri xüsusi vasitələrin tətbiqi dəstəsidir.

Bölmənin fəaliyyəti və şəxsi heyəti barədə məlumat almaq üçün dəstə komandirinin vəzifələrini icra edən mayor Pərviz Məmmədovla həmsöhbət olduq. O, 2022-ci ilin sentyabr ayında keçirilən inspeksiya yoxlaması zamanı xüsusi vasitələrin tətbiqi dəstəsinin hissə üzrə fərqlənərək birinciliyi qazandığını nəzərimizə çatdırdı. Hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan zabit döyüş hazırlığının yüksəldilməsi, hərbi qulluqçuların mənəvi-psixoloji durumunun qənaətbəxş olması üçün hər zaman olduğu kimi, bu il də əzmlə çalışdığını bildirdi. Əlbəttə ki, əldə olunan nailiyyətdə təkcə onun deyil, həm də tabeliyində olan şəxsi heyətin payı olduğunu dilə gətirən komandir "hər bir uğurlu işin arxasında peşəkar bir komandanın zəhməti var" deyərək fikrini əsaslandırdı.

Tabeliyindəki şəxsi heyətin döyüş və ictimai-siyasi hazırlığına, hərbi intizamına, daxili qayda-qanuna riayət edilməsinə, silahların, əmlakların qorunub saxlanılmasına cavabdehlik daşıyan mayor P.Məmmədov gündəlik olaraq öz xidmətini Daxili işlər nazirinin müavini – daxili qoşunların komandanının müvafiq əmrinə əsasən qurduğunu qeyd etdi.

Şəxsi heyətin bilik və bacarığının artırılması, bömədə yoldaşlıq münasibətlərinin qorunub saxlanılması və mənəvi-psixoloji durumun yüksəldilməsi üçün xüsusi vasitələrin tətbiqi dəstəsinin komandirinin tərbiyə işləri üzrə müavini mayor Şahin Rzayev öz səylərini əsirgəmir. Onu bacarıqlı zabit kimi qiymətləndirən komandir hər bir məsələdə yaxın köməkçisi olduğunu dedi.

İcraçılığında fərqlənən xüsusi vasitələrin tətbiqi bölməsinin komandiri kapitan Cavanşir Allahverdiyev və qrup komandiri baş leytenant Nurlan Əhmədov üzərilərinə düşən vəzifələri layiqincə yerinə yetirir, bölmənin yüksək nəticələr əldə etməsi üçün əzmlə çalışırlar.

Verilən tapşırıqların icrasına vicdanla yanaşan hərbi qulluqçulardan baş leytenant Təbriz Hüseynov, leytenant Tural Qədimov, baş gizirlər Asif Cumayev, Nazir Haqverdiyev, gizir Şahin Salmanov, baş çavuş Elçin Məhərrəmovun adlarını çəkən komandir şəxsi heyət arasında ruh yüksəkliyinin olduğunu diqqətə çatdırdı.

Şəxsi heyətə şərəfli xidmətində uğurlar arzulayırıq.

**kapitan Nigar Ağayeva**

3_Layout 1 13.04.2023 19:01 Page 1



## ÜMUMMİLLİ LİDERİN 100 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ TƏDBİR TƏŞKİL OLUNUB

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə aprel ayının 10-da Daxili Qoşunların Ali Hərbi Məktəbində təntənəli mərasim keçirilib. Mərasimdə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Azərbaycanın yeni tarixi şöbəsinin müdiri Hacı Həsənov, Daxili İşlər Nazirliyinin şəxsi heyətlə iş üzrə idarəsinin nümayəndəsi polkovnik-leytenant Elsevər Həsənov iştirak ediblər.



Mərasimdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti vəzifə borclarının icrası zamanı həlak olmuş hərbi qulluqçularımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Dövlət Himni səsləndirilib.

Ali Hərbi Məktəbin rəisi general-mayor İlqar Məmmədov tədbiri açıq elan edərək, dövlətimizin qurucusu, Azərbaycan siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi, milli özünüdərk prosesinin əsasını qoyan Ulu Öndər Heydər Əliyevin xalqımıza və dövlətimizə verdiyi töhfələr, ordu quruculuğu sahəsində görülən genişmiqyaslı işlər barədə tədbir iştirakçılarına məlumat verib.







Daha sonra çıxış edən AMEA-nın Tarix İnstitutunun Azərbaycanın yeni tarixi şöbəsinin müdiri Hacı Həsənov tarixə adını qızıl hərflərlə yazdıran Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu və ictimai-siyasi fəaliyyəti barədə danışıb.

Tədbirdə "Heydər Əliyev və 44 günlük Zəfər yolu" sənədli filmi nümayiş etdirilib. Filmdə Silahlı Qüvvələrimizin Vətən müharibəsi zamanı göstərdiyi qətiyyət, cəsarət, vətənpərvərlik və Heydər Əliyevin bu qalib ordunun quruculuğu istiqamətindəki danılmaz fəaliyyətindən bəhs edilib.

Tədbirin sonunda Ali Hərbi Məktəb rəisinin tərbiyə işləri üzrə müavini polkovnik Nəriman İsayev milli-mənəvi dəyərləri özündə əks etdirən azərbaycançılıq ideologiyası mövzusunda çıxış edib. O, xalqımızın azərbaycançılıq ideologiyasının əsasının məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulduğunu, bu istiqamətdə işlər aparıldığını, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında bu işlərin bundan sonra da davam etdiriləcəyini vurğulayıb.

Ümummilli Liderimiz Heydər Əliyevin ideyalarına sadiq qalacağımıza, Ali Baş Komandan İlham Əliyevin ətrafında daim sıx birləşəcəyimizə əminlik ifadə olunub.

**kapitan Xədicə Hacızadə**

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN 100 İLLİK YUBİLEYİ İLƏ BAĞLI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ƏMƏKDAŞLARI AĞACƏKMƏ AKSİYASI KEÇİRİBLƏR

Aprelin 6-da müstəqil Azərbaycanın memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi çərçivəsində Daxili İşlər Nazirliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı nəticəsində paytaxtın Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində ağacəkmə aksiyası keçirilib. Tədbirdə hər iki qurumun rəhbər şəxsləri, polis əməkdaşları və Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları iştirak ediblər.



Azərbaycan təbiətinin böyük hamisi Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş tədbirdə yerli iqlimə uyğun olaraq 1000-ə yaxın Eldar şamı əkilib, ərazidə olan bitkilərə qulluq göstərilib, yaşıllıq zonasında təmizlik işləri aparılıb.

Qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu ekoloji siyasət hazırda onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizliyin təmin edilməsi məqsədilə Daxili İşlər Nazirliyinin əməkdaşları digər dövlət orqanları ilə birlikdə mütəmadi olaraq məqsədyönlü tədbirlər həyata keçirirlər.

**DİN-in Mətbuat xidməti**

## İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİL (OMBUDSMAN) APARATININ ƏMƏKDAŞLARI ALİ HƏRBİ MƏKTƏBDƏ VƏ 25031 SAYLI HƏRBİ HİSSƏDƏ OLUBLAR

"Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) Aparatının "Ombudsman təsisatı və hərbi qulluqçuların hüquqlarının müdafiəsi ilə bağlı aparılan işlər" mövzusunda, həmçinin insan hüquqlarının qorunması vəziyyətinin öyrənilməsi ilə əlaqədar Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin və hərbi hissələrinin şəxsi heyəti ilə 2023-cü ildə keçirilməsi nəzərdə tutulan birgə görüşlərə dair tədbirlər planı"na əsasən, aprelin 7-də Azərbaycan Respublikasının Ombudsman Aparatının Hərbi Qulluqçuların Hüquqlarının Müdafiəsi Sektorunun müdiri Fəzail Həsənov və Ombudsman Aparatının çağrı mərkəzi sektorunun müdiri Murad Babayev Ali Hərbi Məktəbdə və 25031 saylı hərbi hissədə olublar.



Görüşün keçirilməsində məqsəd Ombudsman Aparatının hərbi qulluqçuların hüquq və azadlıqlarının qorunub saxlanılması sahəsində həyata keçirdiyi fəaliyyət haqqında şəxsi heyətə ətraflı məlumat vermək, hərbi qulluqçuların hüquqi baxımdan maarifləndirilməsini təmin etmək və onları maraqlandıran sualları cavablandırmaq olub.

Ümumilikdə, kursantlar və hərbi qulluqçular üçün yaradılmış şərait, onlarla rəftar, qida və müalicə işinin keyfiyyəti aparatın əməkdaşları tərəfindən müsbət qiymətləndirilib.

Qeyd edək ki, müvafiq tədbirlər planına əsasən, ilin sonunadək Daxili Qoşunların müxtəlif hərbi hissələrində Ombudsman Aparatı əməkdaşlarının şəxsi heyətlə görüşlər keçirməsi nəzərdə tutulur.

**kapitan Xədicə Hacızadə**

*Qazilərimiz*

## DÖYÜŞ MEYDANI QEYRƏT VƏ MƏTİNLİK MƏKTƏBİDİR

Biz torpaqlarımızı işğal etmiş azğın düşmənə yalnız döyüş meydanında layiqli cavab verməklə, gücümüzü göstərməklə, onun başını əzməklə qisasımızı ala bilərdik. Ümidlə gözlədiyimiz, gerçəkləşəcəyinə inandığımız qisas gününü görmək və zəfər şərəfini yaşamaq xalqımıza qismət oldu. Bu fəxarət və ləyaqət missiyasını həyata keçirmiş şəhidlərimizə, habelə qazilərimizə sonsuzadək minnətdarıq.

44 günlük Vətən müharibəsi zamanı ön cəbhədən yaralanaraq qayıdan hərbi qulluqçularımızdan biri də ehtiyatda olan çavuş Hacıyev Məmməd Asif oğludur. O, 1993-cü il martın 3-də Ağdam rayonunun Çəmənli kəndində doğulub. Asif Hacıyev və Sədaqət Hacıyevanın qurduqları ailənin böyük övladı olan Məmmədin Şamxal adlı qardaşı və Türkan adlı bacısı var. Ədəb-ərkanlı, zəhmətkeş, cəmiyyət üçün layiqli, milli ruhlu gənc kimi yetişməsinə görə, ilk növbədə, valideynlərinə, eləcə də müəllimlərinə borcludur.

Çəmənli kəndində yerləşən şəhid Ziyəddin İsgəndərov adına tam orta məktəbin məzunudur. Məktəbdə oxuyarkən Məmməd peşə seçimi ilə bağlı qəti qərar verməyib. Ancaq hələ o vaxtdan hərbçi peşəsinə rəğbət bəsləyib.

Yeniyetmə yaşından o, idmanın kiqboksinq növü ilə məşğul olub, rayonlararası bir neçə yarışa qatılaraq mükafatlara layiq görülüb.

2011-ci ilin aprel ayında Məmməd müddətli həqiqi hərbi xidmətə çağırılıb. Ordu sıralarına göndərilərək tədris mərkəzində xidmət edib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirib. 2012-ci ilin oktyabr ayında ordudan tərxis olunub. Özünün dediyinə görə, məhz əsgəri xidmətdə olarkən həyatını hərbçi peşəsinə bağlamaq barədə ciddi düşünüb və qərar verib.

2013-cü ilin yanvar ayının 30-da Məmməd Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Müddətdən artıq həqiqi hərbi xidməti dövründə öncə 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin manevr qrupunun atıcısı, sonra isə 17074 saylı hərbi hissəyə keçirilərək xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun atıcısı, habelə istehkamçı yarımqrupunun istehkamçı-radiotelefonçusu vəzifələrinə təyin edilib. Təyin edildiyi vəzifələrdə komandanlığın etimadını doğruldub, komandirlər tərəfindən dəfələrlə mükafatlandırılıb. Hərbi kollektivdə silahdaşlarının hörmətini qazanıb.

2019-cu ilin may ayında Məmməd Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin Göygöl rayonunda yerləşən təlim mərkəzində təşkil etdiyi istehkamçı kursuna cəlb olunub. Kursu müvəffəqiyyətlə bitirməsi peşə bacarıqlarının inkişafı baxımından vacib rol oynayıb.

İslam Həmrəyliyi Oyunları və Avropa Gənclər Festivalı kimi beynəlxalq əhəmiyyətli tədbirlərin gedişində təhlükəsizliyin təmin edilməsi üzrə xidməti tapşırıqları məsuliyyətlə yerinə yetirib.

Məqaləni yazarkən Məmməd haqqında komandirləri və döyüşçü yoldaşlarının fikirlərini də öyrəndim, onlar suallarımı geniş cavablandırdılar.

Vətən müharibəsi iştirakçısı, 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun komandiri kapitan Rəşad Bağıyevin sözlərinə görə, Məmməd onun tabeliyində xidmət edib, mərifətli, təmkinli, savadlı və əzmkar hərbi qulluqçu olub. Müsbət mənəvi keyfiyyətlərini hərbi xidmətdən sonra da qoruyub saxlayıb. Bildirdi ki, o, verilən tapşırıqları yerinə yetirərkən bacarıqlı, çevik, yüksək mənəvi-psixoloji hazırlığa malik hərbi qulluqçu kimi fərqlənib. Təlimlər zamanı peşə biliklərini artırmağa çalışıb. Zabit vurğuladı ki, Məmməd Vətən müharibəsində xüsusi təyinatlı olaraq şərəfli döyüş yolu keçib.



17074 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun yarımqrup komandiri gizir Yolçu Xəlilov da Vətən müharibəsi iştirakçısıdır. O, məlumat verdi ki, Məmmədlə birlikdə 17074 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xidmət ediblər. Silahdaşının xidmət zamanı yoldaşları arasında sayılıb-seçilən, intizamlı, özünə tələbkar yanaşan, funksional vəzifələrini bilən və düzgün icra edən hərbi qulluqçu olduğunu dedi. Bu gün də yoldaşlarının ona müsbət münasibətinin dəyişmədiyini söylədi. Qeyd etdi ki, Məmməd 17074 saylı hərbi hissədə xidmət edərkən Zaqatala və Balakən rayonlarının dağlıq ərazilərində narkotik maddələrin axtarılması, utilizasiyası üzrə əməliyyatlarda, həmçinin ictimai təhlükəsizliyin qorunması tədbirlərində fəallıq göstərib.

Gizir Y.Xəlilov bildirdi ki, 44 günlük Vətən müharibəsi başladıqda ilk gündən ön cəbhəyə göndəriliblər. Müdafiə Nazirliyinin tabeliyində olan xüsusi təyinatlı bölmələrin şəxsi heyəti ilə birlikdə müxtəlif istiqamətlərdə erməni işğalçılarına qarşı döyüşüblər. Məmmədin hücuma keçən qrupların birinin tərkibində vuruşduğunu, qorxmaz döyüşçü olaraq düşmənin üzərinə atıldığını, qətiyyəti və iradəsi ilə yoldaşlarını da ruhlandırdığını söylədi.

17074 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun yarımqrup komandiri baş çavuş Əlvan Hüseynov da müharibə sınağından keçib. Danışdı ki, Məmmədin yarımqrup komandiri olub, onun vicdanla xidmət etdiyini, istənilən tapşırığın öhdəsindən gəldiyini, yoldaşlıqda etibarlılığını vurğuladı. Məlumat verdi ki, Məmməd döyüş tapşırıqlarını mərdliklə yerinə yetirib, yaralandığı anadək öndə gedib, müharibənin hər üzünü görüb.

Vətən müharibəsi qazisi, ehtiyatda olan baş çavuş Olxan Quliyev də Məmmədin silahdaşlarından biridir, 2013-cü ildən onu tanıyır. Qeyd etdi ki, Məmməd təlimdə, xidmətdə, o cümlədən döyüşdə yoldaşlarından diqqət və qayğısını əsirgəməyib. Peşə biliklərini həmişə bölüşüb, xüsusən istehkamçı olaraq yiyələndiklərini onlara müəyyən dərəcədə öyrətməyə çalışıb. Hər bir şəraitdə özünü çətinliklə üzləşən yoldaşına yetirməyə can atıb. Diqqətə çatdırdı ki, Məmməd müharibədə torpaqlarımızın işğaldan azad olunmasına öz töhfəsini verib. AK-74 silahı ilə işğalçılara atəş zərbələri endirib, minaaxtaran cihazdan istifadə edərək ayrı-ayrı ərazilərdə döyüşçülərimizin irəliləməsinə şərait yaradıb.

Məmmədin özünün danışdığı döyüş xatirələri də maraqlı məqamlarla zəngindir. Murovdağın aşırımları, Cəbrayıl, Füzuli, Xocavənd, Xocalı rayonlarının əraziləri, eləcə də Şuşa ətrafından keçən döyüş yolu boyu dəfələrlə ölüm təhlükəsi ilə üzləşib. Gözlərinin önündə silahdaşları şəhid olub və yaralanıblar. Yenilməz döyüş ruhu müharibənin ağrı-acısına dözməyə güc verib. Döyüş yolu oktyabrın 31-də Şuşa rayonunun Daşaltı kəndində başa çatıb. Kəndin ərazisinə düşmən minaatanından atılan mərminin partlaması nəticəsində o və bir neçə nəfər döyüşçü yaralanıb. Yaralıların təxliyyə edilməsində döyüşçü Olxanın xüsusi rolu olub.

Qazinin tibbi sənədlərində onun sol budun arxa əzələləri nahiyəsindən kor qəlpə yarası aldığı və yaralanmanın digər fəsadları barədə qeydlər öz əksini tapıb. Müxtəlif xəstəxanalarda müayinə və müalicə olunub. Tibbi-sosial ekspert komissiyası tərəfindən qaziyə III dərəcə əlillik təyin edilib. Hərbi-həkim komissiyasının qərarı əsasında hərbi xidmətə yararsız hesab edilərək 2021-ci ilin avqust ayında qoşunların sıralarından ehtiyata buraxılıb.

Azərbaycan Respublikası Prezidentinin 25, 29 dekabr 2020-ci il, 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə çavuş M.Hacıyev "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamına əsasən, "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub.

Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının 31 dekabr 2020-ci il tarixli əmri ilə çavuş M.Hacıyevə zoğalı beret daşımaq hüququ verilib.

Məmməd hazırda Çəmənli kəndində yaşayır, öz nəslində yeganə qazidir. O, işləmir, səhhəti ilə bağlı müəyyən müalicələri davam etdirir. Döyüşçü yoldaşları ilə həmişə əlaqə saxlayır, şəhid silahdaşlarının ailələrinə mütəmadi olaraq baş çəkir və vətənpərvərlik mövzusunda ictimai tədbirlərə qatılır.

Sonda onu da qeyd edim ki, Çəmənli Birinci Qarabağ müharibəsi zamanı Ağdam rayonunun işğala məruz qalmayan kəndlərindən biridir. Bu kənddən 28 nəfər Birinci Qarabağ müharibəsi, Aprel döyüşləri və 44 günlük Vətən müharibəsi dövrlərində şəhidlik zirvəsinə ucalıb, onlardan 21 nəfəri hərbi qulluqçu, 7 nəfəri isə mülki şəxsdir, 21 nəfər qazi olaraq evinə qayıdıb.

**Yalçın Abbasov**

4_Layout 1 13.04.2023 18:25 Page 1



## DÖYÜŞ XİDMƏTİNƏ CƏLB EDİLƏN ŞƏXSİ HEYƏT ƏZMKARLIQ NÜMAYİŞ ETDİRİR



25033 saylı hərbi hissənin döyüş hazırlığını yüksək səviyyədə qoruyub saxlayan, həvalə olunan tapşırıqları uğurla yerinə yetirən bölmələrindən biri komendant bölüyüdür. Bölük komandiri kapitan Mənsur Nağdan-Əliyev bildirdi ki, hərbi hissənin döyüş bayrağının, avtomobil və zirehli texnikalar saxlanılan parkın, anbarların mühafizə və müdafiəsi komendant bölüyünün şəxsi heyəti tərəfindən təmin olunur. Bölük döyüş xidmətinin yerinə yetirilməsində yüksək peşəkarlıq nümayiş etdirir.

Hərbi hissənin mühafizə və müdafiəsini təşkil edən qarovulun üzərinə böyük məsuliyyət düşür. Bu baxımdan xidmətə cəlb olunan hərbi qulluqçularda bir sıra vacib xüsusiyyətlərə diqqət yetirilir. Hərbi qulluqçuların sağlamlığını, mənəvi-psixoloji durumunu əsas şərt kimi dəyərləndirən bölük komandiri kapitan M.Nağdan-Əliyev digər lazımi keyfiyyətlərin keçirilən nəzəri məşğələlər və praktiki təlimlər zamanı aşılandığını söylədi. Keçirilən məşğələlərin şəxsi heyətin bilik və bacarıqlarının artırılmasına təkan verdiyini nəzərimizə çatdırdı.

Bölük komandiri qeyd etdi ki, keçirilən təlim və məşğələlərdə kifayət qədər fiziki güc, eləcə də bilik əldə edən şəxsi heyət postda xidmət apararkən daha ayıq-sayıq, çevik olur, tapşırılmış obyektin mühafizəsini qüsursuz yerinə yetirir.

Komendant bölüyündə xidmətin təşkilində, hərbi qulluqçuların xidmətə hazırlanmasında, qarovulun yoxlanılmasında bölük komandirinin tərbiyə işləri üzrə müavini leytenant Rizvan Sultanovun yaxından iştirak etdiyini deyən kapitan M.Nağdan-Əliyev onun bacarıqlı və çalışqan zabit olduğunu bildirdi.

Komandir onu da əlavə etdi ki, şəxsi heyətlə mütəmadi olaraq təşkil edilən məşğələlərin nəticəsi olaraq komendant bölüyü ötən rüb xidməti-döyüş fəaliyyətinin və hərbi intizamın yekunlarına görə əsgəri bölüklər arasında birincilik qazanıb: "Bu uğur bütün şəxsi heyətin əzmkarlığının nəticəsi kimi hər birimizi sevindirir və bundan sonra da xidməti fəaliyyətimizdə müsbət tərəfdən fərqlənməyimizi stimullaşdırır".

Bölük komandiri layiqli xidməti ilə şəxsi heyətə örnək olan hərbi qulluqçulardan baş leytenant Orxan Əzizov, baş çavuş Şəmşir Qasımlı, kiçik çavuş Anar Mahmudov, baş əsgər Mehman Şaiqoğlu, əsgərlər Ramil Həsənzadə və Ramil Məhərrəmovun adlarını qeyd etdi.

**kapitan Şahin Cəfərzadə**

## ÜZƏRİNƏ DÜŞƏN VƏZİFƏLƏRƏ MƏSULİYYƏTLƏ YANAŞAN BÖLMƏ



Daxili Qoşunların Ali Hərbi Məktəbinin qərargahında kargüzarlıq üzrə bölmə nümunəvi xidməti fəaliyyəti ilə fərqlənir. Bölmə işini Daxili işlər nazirinin aidiyyəti qərarına, Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının əmrlərinə, eləcə də müvafiq təlimat və göstərişlərin tələblərinə əsasən təşkil edir.

Qərargahın kargüzarlıq üzrə məsul icraçısı-texniki gizir Tural Babayev funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan, bacarıqlı hərbi qulluqçu kimi xarakterizə olunur. 2006-2007-ci illərdə Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2008-ci ilin mart ayından Daxili Qoşunların sıralarında xidmət edir.

Gizir T.Babayev qeyri-məxfi kargüzarlığa daxil olan sənədlərin, əmr və göstərişlərin düzgün tərtibatına, vaxtında qeydiyyatdan keçirilib, aidiyyəti üzrə icraçılara çatdırılmasına cavabdehlik daşıyır. O, qeyri-məxfi kargüzarlığın aparılmasına dair əmr, təlimat və göstərişlərin tələblərini, xidməti sənədlərin çap edilməsi, çoxaldılması, göndərilməsi, uçotu, saxlanılması qaydalarını, eləcə də qovluqların nomenklatura üzrə tərtibatı, möhür və ştamplardan düzgün istifadə edilməsi qaydalarını dərindən bilir və gündəlik xidməti fəaliyyətində onlara əməl edir.

Hərbi qulluqçu ilə söhbət zamanı məlum oldu ki, gündəlik olaraq kargüzarlığa daxil olan sənədlərin qeydiyyatı aparılır və aidiyyəti üzrə məktəb rəisinə məruzə olunması üçün hazırlanır. İcraçılar tərəfindən bütün növ sənədlərin vaxtında icra edilməsi bölmənin hərbi qulluqçuları tərəfindən nəzarətdə saxlanılır.

Görülən işlərdə hərbi qulluqçu qərargahın kargüzarı kiçik gizir Seyranə Həsənzadənin də böyük əməyinin olduğunu söylədi. Qeyd edim ki, kiçik gizir S.Həsənzadə 2015-ci ilin oktyabr ayından Daxili Qoşunların Ali Hərbi Məktəbində xidmət edir. O da nümunəvi, savadlı hərbi qulluqçu kimi xarakterizə olunur, verilən tapşırıqları vaxtında və düzgün yerinə yetirir.

Bir sözlə, bölmənin şəxsi heyəti üzərinə düşən vəzifələri layiqincə icra etmək üçün bilik və bacarığını artırmaq istiqamətində səylə çalışır.

**kapitan Xədicə Hacızadə**

## SAĞLAMLIQ KEYFİYYƏTLİ QİDALANMADAN BAŞLAYIR



Daxili Qoşunlarda hərbi qulluqçuların sağlamlığının qorunması məqsədilə fiziki hazırlıq məşğələləri, profilaktika və epidemiya əleyhinə tədbirlər müntəzəm olaraq keçirilir, sanitar-gigiyena qaydalarına əməl edilir. Hərbi qulluqçuların səhhətinin möhkəmləndirilməsi sağlam və keyfiyyətli qidalanmadan asılıdır. Bu baxımdan deyə bilərik ki, şəxsi heyətin keyfiyyətli və kalorili yeməklərlə qidalanması son dərəcə vacibdir.

25031 saylı hərbi hissənin komandanlığı hərbi qulluqçuların keyfiyyətli və kalorili yeməklərlə qidalanmasını daim diqqət mərkəzində saxlayır. Hazırlanan xörəklərin keyfiyyəti isə tələblərə tam cavab verir. Əlbəttə ki, bütün bu işlərdə hərbi hissənin maddi-texniki təminat xidmətlərində ərzaq xidmətinin rəisi kapitan Samir Mehdiyevin əməyi böyükdür. Nümunəvi xidməti, bilik və bacarıqları ilə fərqlənən hərbi qulluqçumuz xidməti fəaliyyəti zamanı Daxili işlər nazirinin, Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının əmr və göstərişlərindən irəli gələn vəzifələri məsuliyyətlə yerinə yetirir.

Xidmət rəisi şəxsi heyətin vaxtlı-vaxtında keyfiyyətli ərzaqla təmin olunmasına, eləcə də ərzaqların qorunub saxlanılmasına, yeməkxanada sanitar-gigiyenik qaydalara ciddi əməl edilməsinə, burada mövcud olan soyuducu və digər texniki avadanlıqların istismarına nəzarət edir.

Şəxsi heyətin qidalanmasının müvafiq rəhbər sənədlərin tələbləri əsasında təşkil olunduğunu söyləyən kapitan S.Mehdiyev qida rasionu barədə məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. Xüsusilə qış mövsümü ilə əlaqədar olaraq, qida rasionuna soğan, sarımsaq kimi faydalı tərəvəzlər əlavə olunur.

Qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması məqsədilə kurs keçmiş ixtisaslı əsgər aşpazlarla bərabər işçilərin əməyindən də istifadə olunur. Kapitan S.Mehdiyev onların qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiklərini, qidaların keyfiyyətlə hazırlandığını diqqətə çatdırdı. Əlavə olaraq bildirdi ki, işçi aşpazlardan Bəsti Məsiyeva, Mətanət Vəliyeva, həmçinin yeməkxana rəisi baş çavuş Faiq Məmmədov üzərilərinə düşən vəzifələri məsuliyyətlə icra edirlər.

**kapitan Şahin Cəfərzadə**

### Türkiyə xüsusi təyinatlıları üçün yerli katerlər istehsal olunacaq

Türkiyənin Milli Müdafiə Nazirliyinin tabeliyindəki ASFAT şirkəti Xüsusi Təyinatlı Qüvvələr Komandanlığının istifadəsi üçün katerlər istehsal edəcək. "Poliqon" xəbər verir ki, bu barədə ASFAT şirkəti məlumat yayıb.

Məlumatda ASFAT-ın hərbi zavodlarında yerli və milli şəkildə istehsal olunacaq bu katerlərin xüsusi əməliyyatların yerinə yetirilməsində istifadə ediləcəyi bildirilib.

Qeyd olunub ki, daha öncə Türkiyə xüsusi təyinatlılarının istifadə etdiyi həmin katerlər ölkə xaricindən təmin edilirdi.

### HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-



*İdman*

## YIĞMA KOMANDAMIZ İLK PİLLƏDƏ QƏRARLAŞIB




Aprelin 1-də Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunan daxili işlər orqan və hissələri arasında atıcılıq üzrə yarış keçirilib.

Güllə atıcılığı üzrə keçirilən yarışda Daxili Qoşunların yığma komandası 5 idmançı və 1 nümayəndə ilə təmsil olunub.

Qeyd edək ki, yarışda tapançadan atəş üzrə (PM-2) tapşırıqların yerinə yetirilməsində fərqlənən 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin snayper qrupunun atıcı-snayperi çavuş Elşən Əlməmmədov 1-ci, Ali Hərbi Məktəbin tərbiyə işləri üzrə bölməsinin rəisi-baş təlimatçı kapitan Elşən İbadov 3-cü və qadınlar arasında tapançadan atəş üzrə (PM-2, PM-3) hər iki tapşırığın yerinə yetirilməsində uğur qazanan 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi bölməsinin götürmə qrupunun yarımqrup komandiri gizir Həqiqət Atayeva 1-ci yerlərə layiq görülüblər. Ümumilikdə, yarışın nəticələri üzrə 13 komanda arasında Daxili Qoşunların yığma komandası ilk pillədə qərarlaşıb.

Yarışda medal qazanmış hərbi qulluqçular Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı tərəfindən mükafatlandırılıblar.

Yığma komandamıza bundan sonrakı fəaliyyətində uğurlar diləyir, hər zaman qaliblər sırasında olmağı arzulayırıq.

**kapitan Nigar Ağayeva**

*NÜMUNƏVİ XİDMƏT*

## PEŞƏKAR MUSİQİÇİ, İNTİZAMLI HƏRBİ QULLUQÇU



Musiqi insanlara böyük təsir qüvvəsinə malikdir, bir incəsənət növü kimi hərbi qulluqçuların vətənpərvərlik əqidəsinin, mədəni-estetik dünyagörüşünün formalaşdırılmasında vacib rol oynayır. Daxili Qoşunların Nümunəvi göstərici hərbi orkestri keçirilən tədbirlər zamanı öz çıxışları ilə hərbi qulluqçularımızda xoş ovqat yaradır. Repertuarında hərbi marşlara, vətənpərvərlik ruhunda mahnılara üstünlük verən hərbi orkestr peşəkar musiqiçilərdən təşkil edilib.

Nümunəvi göstərici hərbi orkestrdə konsertmeyster baş çavuş Tural Binnətəliyev istedadlı musiqiçilərdən biridir. O, 1986-cı ilin sentyabr ayının 2-də Cəbrayıl rayonunun Horoğlu kəndində anadan olub. 1994-cü ildən 2005-ci ilədək Sumqayıt şəhərində yerləşən Zəngilan rayonunun 23 saylı orta məktəbində oxuyub. Musiqiyə böyük marağı olan Mehman musiqiçi kimi yetişmək arzusunu reallaşdırmaq üçün 2000-ci ildən 2005-ci ilədək Qara Qarayev adına 3 nömrəli incəsənət məktəbində təhsil alıb. Məktəbi bitirdikdən sonra Müdafiə Nazirliyinin Xızı rayonunda yerləşən "N" saylı hərbi hissəsində 2005-ci ilin iyul ayından 2007-ci ilin yanvar ayınadək müddətli həqiqi hərbi xidmət keçib. 2013-cü ilin mart ayında "kiçik çavuş" hərbi rütbəsi verilməklə orkestrdə müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb.

Hərbi musiqiçi kimi öz bacarığını təkmilləşdirməyi qarşısına məqsəd qoyan baş çavuş T.Binnətəliyev bu gün orkestrdə xidmətdə olduğu üçün fəxr etdiyini bildirir. Özünü musiqisiz bir an belə təsəvvür etməyən müsahibim orkestrdə peşəkar ifaçıların olduğunu, zaman-zaman bu kollektivdə məşhur incəsənət xadimləri ilə çiyin-çiyinə çalışdığından qürur duyduğunu vurğuladı. O, orkestrin repertuarındakı musiqi əsərlərini mükəmməl ifa edir, öz musiqi alətinin və cavabdeh olduğu əmlakların istismara yararlığını qoruyub saxlamağı bacarır. Peşəsinin bilicisi olmaqdan əlavə, o həm də intizamlı, xidmətə vicdanlı münasibətilə fərqlənən hərbi qulluqçu kimi xarakterizə olunur. Kollektivdə özünə hörmət qazanıb. Daim öz üzərində çalışır, peşəkarlıq vərdişlərini təkmilləşdirir.

**kapitan Şahin Cəfərzadə**

## Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **istefada olan mayor Xəlil Şabanovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

17071 saylı hərbi hissənin komandanlığı gizir Elvin Nurməmmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

12318 saylı hərbi hissənin komandanlığı baş çavuş Tural Əliyevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000